Yeni nəşrlər





**Dünən Milli Azərbaycan Tarixi Muzeyində tanınmış publisist, naşir, pedaqoq və ictimai-siyasi xadim Ömər Faiq Nemanzadənin anadan olmasının 150 illik yubileyi münasibətilə hazırlanan "Ömər Faiq Nemanzadə" fotoalbomunun təqdimat mərasimi keçirildi.**

# Ömər Faiq ömrünün işığı

Toplantını giriş sözü ilə açan Milli Azərbaycan Tarixi Muzeyinin baş direktoru, akademik Nailə Vəlixanlı qonaqlara təqdim edilən illüstrativ nəşr barədə ətraflı məlumat verdi. Akademik qeyd etdi ki, Milli Azərbaycan Tarixi Muzeyinin fondları hər il xalqımızın tarixinin və mədəniyyətinin müxtəlif səhifələrini əks etdirən yeni materiallarla zənginləşir. Muzeyin yeni nəşrinə daxil olan Ömər Faiq Nemanzadəyə aid fotoşəkillər görkəmli şəxsiyyətin yaşadığı dövrün öyrənilməsi baxımından böyük maraq kəsb edir. Bəzi şəkillərdə əhəmiyyətli tarixi hadisələr əks olunub.

Qeyd olundu ki, Milli Azərbaycan Tarixi Muzeyinin icraçı direktoru, tarix üzrə fəlsəfə doktoru, dosent Fərhad Cabbarovun və Ö.F.Nemanzadənin nəticəsi Ülviyyə Pepinovanın tərtibçiləri olduğu fotoalboma böyük maarifçinin varisləri tərəfindən muzeyə hədiyyə olunmuş materiallar daxildir.

Tədqiqatçı-alim Fərhad Cabbarov çıxışında bildirib ki, təqdim olunan nəşrdə, təkcə Ö.F.Nemanzadənin və onun ailə üzvlərinin deyil, həmçinin, Azərbaycanın ictimai həyatında, təhsil və maarif sahəsində xidmətləri olmuş bir çox insanların fotoşəkillərinə də rast gəlinir. Ömər Faiq əfəndinin ana tərəfdən qohumları olan məşhur Pepinovlar nəslinin nümayəndələrinin, həmçinin, Şəfiqə xanım Əfəndizadənin, Məmmədzəki və Münirə xanım Dursunzadələrin bəzi fotoları da ilk dəfə məhz bu albomda nəşr olunub. Fotoalbomun ərsəyə gəlməsi Ömər Faiq Nemanzadənin öyrənilməsi, dövrünün tədqiqatı baxımından bir təkan oldu. İcraçı direktor xüsusi vurğuladı ki, mərhum professor Şamil Qurbanov Ömər Faiq Nemanzadə irsini üzə çıxarılmasında xeyli iş görüb və bugünkü albomun hazırlanmasında həmin mənbələrdən də istifadə edilib.

Ömər Faiq Nemanzadənin nəvəsi Fuad Pepinov babasının xatirəsini əbədiləşdirilməsi və 150 illik yubileyinin keçirilməsi haqqında sərəncama görə dövlətimizin başçısı İlham Əliyevə ailələri adından minnətdarlığını bildirdi.

Sonra professor Solmaz Rüstəmova-Tohidi, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin Elm şöbəsinin müdiri İradə Musayeva, tarix üzrə fəlsəfə doktoru Kamran İsmayılov Ömər Faiq Nemanzadənin həyat və yaradıcılığı, albomun ərsəyə gəlməsi barədə ətraflı məlumat verdilər. Çıxışlarda bildirildi ki, Ömər Faiq Nemanzadə Azərbaycanın, eləcə də bütün türk dünyasının ictimai-siyasi fikir tarixində silinməz iz qoyan böyük şəxsiyyətdir. Onun Azərbaycan xalqı qarşısında xidmətləri, ədəbi, bədii, publisistik və ictimai-siyasi fəaliyyəti bugünədək yetərincə öyrənilməyib. Ömər Faiq Nemanzadənin Moskvada yaşayan qohumlarının təşəbbüsü ilə hazırlanan fotoalbom böyük fikir adamının həyat və fəaliyyətinin dərindən öyrənilməsi, əldə olunan materialların tədqiqatçılar tərəfindən yeni araşdırmaya cəlb edilməsi baxımından qiymətli mənbədir.

Sonda qonaqlar muzeyin yeni nəşri olan "Ömər Faiq Nemanzadə" adlı fotoalbomla, həmçinin Ülviyyə Pepinovanın təşəbbüsü ilə hazırlana rus dilində nəşr olunan biblioqrafik məlumat kitabı ilə tanış oldular.

**Qabil YUSİFOĞLU,**
**"Xalq qəzeti"**